**UOT: 821.512.162.09**
https://doi.org/10.59849/2409-4838.2026.2.10

# AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN QAZANILMASINDA ƏDƏBİ MÜBARİZƏNİN ROLU

**Səbuhi Adil oğlu Qəhrəmanov**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
gahramanovsabuhi@gmail.com

*Azərbaycan xalqının azadlıq mübarizəsində, dövlət müstəqilliyinin əldə olunmasında müxtəlif amillərlə yanaşı, Azərbaycan ədəbiyyatının da yeri və rolu böyükdür. Ədəbiyyat sovet dövründə rəsmi kommunizm ideologiyasının təzyiqi altında olmasına baxmayaraq, Azərbaycanda milli şüurun oyanmasında, istiqlal ideyalarının yetişməsində fəal iştirak etmişdir. Xüsusilə 1960–1980-ci illər Azərbaycan ədəbiyyatı milli yaddaşı qoruyaraq azərbaycançılıq məfkurəsinin formalaşmasına ciddi təsir etmişdir. Bu dövrün ədəbi nümunələrindən, mətbuatdakı polemikalardan göründüyü kimi, kommunizm və azərbaycançılıq məfkurələri qarşı-qarşıya gələrək mübarizə aparmışlar. Kommunizm ideologiyası sosializm realizmi standartlarına söykənərək ədəbiyyata təsir göstərirdisə, azərbaycançılıq məfkurəsi daha çox "altmışıncılar" ədəbiyyatında təcəssüm olunurdu.*

*Anar, İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə, Rəsul Rza, Mövlud Süleymanlı, Elçin, Sabir Əhmədov və başqa "altmışıncılar" ədəbiyyatı nümayəndələrinin əsərləri sosrealizm qəlibindən çıxaraq Azərbaycan insanının mənəvi dünyasını, milli dəyərləri, rejimə qarşı etirazı əks etdirmişdir. 1960–1980-ci illər Azərbaycan ədəbiyyatında azərbaycançılıq məfkurəsinin kommunizm ideologiyasına qalib gəlməsi müstəqillik düşüncəsinin formalaşmasında həlledici amil olmuşdur.*

***Açar sözlər:*** *Azərbaycan ədəbiyyatı, sosialist realizmi, "altmışıncılar", azərbaycançılıq, müstəqillik, ideoloji mübarizə, milli şüur*

## GİRİŞ

Azərbaycan xalqının uzun illər azadlıq uğrunda mübarizəsi nəticəsində istiqlalına qovuşmasında, 18 oktyabr 1991-ci ildə dövlət müstəqilliyinin bərpasında digər amillərlə yanaşı, ədəbiyyatın da xüsusi yeri vardır. Müasir Azərbaycan ədəbiyyatı 1960–1980-ci illərdə milli ruhun oyanması, milli şüurun dirçəlişi və yenidən təşəkkülündə, azərbaycançılıq məfkurəsinin yetişməsində mühüm rol oynamışdır. Bu onillər ərzində bir neçə nəslin ictimai dünyagörüşünü, həyata baxışını, milli-mənəvi ruhunu, ilk növbədə, məhz ədəbiyyat formalaşdırmışdır. Rəsmi ideologiyanın sosialist həyat tərzi və kommunizm görüşlərini təbliğ etdiyi bir zamanda buna alternativ olaraq azərbaycançılıq məfkurəsinin daşıyıcısı ədəbiyyat olmuşdur. Milli həqiqətlərin birbaşa səslənməsinə şəraitin olmadığı bir zamanda ədəbiyyat bunu dolayısıyla əks etdirmiş, milli varlığın danışan dili olmuşdur. Milli yaddaşı qoruyan, Azərbaycan cəmiyyətini yad rejimə qarşı səfərbər edən və istiqlal ideyalarına gətirib-çıxaran da ədəbiyyatın gücüdür. "Xüsusilə milli kimliyi keçmişlə əlaqələndirən dastanlar, rəvayətlər, tarixi romanlar ədəbiyyatın millət quruculuğu layihələrində funksionallığını daha da artırır" [26, s. 67].

Müstəqillik dövrü ədəbiyyatının tədqiqatçıları müstəqilliyin qazanılmasında digər amillərlə yanaşı, 1960–1980-ci illərin ədəbiyyatının rolunu məxsusi olaraq vurğulayırlar: "Bununla belə, ədəbiyyat yeni epoxanın gəlişini təkcə passiv şəkildə əks etdirməklə, qalmamış eyni zamanda, müstəqilliyin qazanılmasında fəal şəkildə iştirak etmişdir. Bütün sövet dövrü ərzində ədəbiyyatda müstəqillik ideyalarının yetişməsi və təcəssümü bir neçə şəkildə özünü büruzə vermişdir:

– ana dilinin və milli şüurun qorunması və inkişaf etdirilməsi;

– milli-tarixi yaddaşın bərpası;
– Azərbaycan idealının, milli vətənpərvərlik ruhunun yaşadılması;
– Azərbaycan insanının obrazının bədii təcəssümü;
– nəhayət, birbaşa milli ideya vasitəsilə qurtuluşa çağırışın bədii ifadəsi" [18, s. 6].

Müstəqillik ideyalarının ədəbiyyatda əksi birdən-birə deyil, mərhələli şəkildə baş vermiş, azərbaycançılıq məfkurəsinin tam formalaşması ilə məqsədə yetişmişdir.

**ƏSAS HİSSƏ**

İki dünyagörüşünün – kommunizm və azərbaycançılıq məfkurələrinin mübarizəsi

XX əsrin ikinci yarısı, poststalinizm dövründən başlayaraq, Azərbaycan ədəbiyyatında iki dünyagörüşü, iki məfkurə – kommunizm və azərbaycançılıq platformaları qarşı-qarşıya gələrək savaş mövqeyində olmuşdur. Bir yandan gizlin, passiv mübarizədə yanaşı olmaqla bir-birinə meydan oxumuş, digər tərəfdən dəfələrlə üz-üzə gələrək aktiv fazaya keçmiş, biri digərini inkar etmişdir. Ədəbiyyatda kommunizm ideologiyası dövlət tərəfindən rəsmən qorunan və yaradıcılıq üzərində nəzarət mexanizminə çevrilmiş sosializm realizmi (sosrealizm) standartları vasitəsilə yeridilirdi. Azərbaycançılıq məfkurəsi isə gücünü millilik konseptində göstərir, daha çox yeni, "altmışıncılar" ədəbiyyatında təcəssüm olunurdu.

Hər iki ideologiyanın savaşı yaranan bədii əsərlərdə, ədəbi nümunələrdə görünür, rəsmi siyasi mövqedən və ədəbi tənqid tərəfindən etirazlar, polemikalar, müzakirələrlə qarşılanırdı. 1960-cı illərin əvvəllərində ölkənin kommunizm quruculuğu proqramı qəbul etməsi rəsmi ideologiyanın mövqeyini gücləndirmiş və bu platformadan "altmışıncılar" ədəbiyyatı total tənqidə məruz qalmışdı. "Ədəbiyyat və incəsənət" qəzetinin "Kommunizmə sədaqət ruhunda" [17], "İdeya silahımız təmiz olmalıdır" [16], "Tarixi günlər" [23] mövzulu baş məqalələrində ədəbiyyata ideoloji nəzarət aşkar şəkildə özünü göstərirdi: "Görkəmli əsər – ədəbiyyat və incəsənətimizin ən yaxşı xüsusiyyətlərini özündə birləşdirən, sosializm realizmi cəbhəsindən, kommunizm ideyaları mövqeyindən yazılan, partiya ilə xalqın, partiya ilə ədəbiyyatın və incəsənətin qranit vəhdətini yüksək bədii pafosla əks etdirən müxtəlif ədəbi janrların bir istiqamətə – kommunizmə yönəldilmiş əzəmətli yürüşü deməkdir" [23, s. 1].

Mülayimləşmə dövründə (1956–1964) xüsusi fərqlənən "altmışıncılar" ədəbiyyatında sosrealizm qəliblərindən əsər-əlamət yox idi. "Xalq yazıçısı Anarın 1960-cı ildə "Azərbaycan" jurnalının on ikinci sayında çap olunmuş iki hekayəsi – "Bayram həsrətində" və "Keçən ilin son gecəsi" ilə Azərbaycanda altmışıncılığın ilk təməlləri atılmış oldu" [4, s. 12]. "Altmışıncılar" ədəbiyyatı milli həyata bağlı, sovet həqiqətlərinin ziddiyyətlərini açıb-göstərən nümunələr ortaya qoyur, ədəbi-bədii ənənə zəminində əsrin əvvəllərinin realizm və romantizm ədəbiyyatına, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, M.Ə.Sabir, M.Hadi, H.Cavid irsinə söykənirdi. Buna görə də həmin ədəbiyyat ilk nümunələrindən sosializm cəbhəsindən, sosrealizmin tələbləri ilə mühakiməyə çəkilmişdi.

Anarın ilk yaradıcılıq nümunələrindən olan "Keçən ilin son gecəsi" hekayəsi ədəbi tənqid tərəfindən "Kommunist" qəzetində məhz "kommunist əxlaqı" kodeksi ilə "ifşa" olunurdu. Gənc nəslin kommunizm ruhunda tərbiyəsini tələb edən tənqid zahirən milli adət-ənənə qayğısına qalır, hekayədə məktəbli yeniyetmələrin niyə aşı bəyənməyib konservə üstünlük verməsi, niyə gənclərin analarını tək qoyub yeni il axşamını yaşıdları, dost-tanışları, sevgilisi-nişanlısı ilə qarşılaması kimi detalları hədəfə götürürdü.

Əslində isə gənc yazıçı bir Azərbaycanlı ailənin nümunəsində məhz milli əxlaq, tərbiyə, valideyn-övlad, fərd və cəmiyyət münasibətləri problemini qoyur, insanların, xüsusən də gənc nəslin psixoloji dünyasına nüfuz etməyə çalışır. Hekayənin əsas personajı ana obrazı yeni il axşamı tək qalsa da, heç də tənha deyildir; övladlarının sevgisi, təbrikləri, səadəti, ərinin xatirəsi onunladır. Hekayənin sonunda Cəlil Məmmədquluzadənin "Anamın kitabı" pyesinin finalı ilə ideya səsləşməsi,

atanın ailə və ailə dəyərləri barədə səslənən müdrik fikirləri, əksinə, yazıçının məhz millilik konseptinə söykəndiyini, milli dəyərlərə üstünlük verdiyini göstərirdi. Təsadüfi deyil ki, hekayə əsasında sonralar film də çəkilmiş, Anarın yazdığı pyes əsasında tele-tamaşası isə bu günə qədər efirlərdən düşməyərək milli ailə dəyərlərini təcəssüm və təbliğ edir.

Anarın yazdığı müasir həyatla bağlı, milli insanın, azərbaycanlı xarakteri və psixologiyasının dərinliklərinə varan, sovet mühitində yadlaşmaya müqaviməti əks etdirən digər əsərləri – "Ağ liman" povesti, "Taksi və vaxt" hekayəsi, "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanı, "Şəhərin yay günləri" pyesi və s. də rejimin etiraz və tənqidi ilə qarşılaşmışdır. İdeoloji ehkamları əsas götürərək, dövrün ədəbi tənqidi Anarın "Ağ liman" əsərində "həyatı əyri güzgüdə əks etdirdiyi", "deformasiyalı və hallüsinasiyalı aləmləri" təsvir etdiyi [24, s. 165], qəhrəmanlarının "qeyri-adilik maskası" altında gizləndiyi [22, s. 55], "filosofluğa da meyl göstərdiyi" və fəlsəfəçiliyə yuvarlandığını [7, s. 43] iddia edir, əsər "Kommunist" qəzetində total tənqidə məruz qalır: ""Ağ liman" povestinin qəhrəmanları insanların dost-qardaş olduğu, qurub-yaradan, daim irəliləyən bir cəmiyyətin ümumi mübarizəsindən, məqsəd və qayələrindən kənarda təsvir edilmişdir. Onların heç biri həyatdan gəlməyib və bugünkü cəmiyyətimiz üçün səciyyəvi adamlar deyildir" [9, s. 3]. Yazıçının digər əsərlərində də – "Taksi və vaxt"da mücərrədçilik, "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanında meşşanlıq, bulvar notları axtarılır, "Şəhərin yay günləri"nin səhnəyə qoyulmasına əngəllər yaradılırdı.

Əvəzində, Anarın satirik qələmi Cəlil Məmmədquluzadə realizmi ilə daha da itiləşir, təzyiqlərə daha da kəskin cavab olaraq "Molla Nəsrəddin-66" povestini, "Adamın adamı" pyesini, rejimin iç mahiyyətini ifşa edən "Yaxşı padşahın nağılı"nı yazırdı. Ulu öndər Heydər Əliyev 1970-ci illərdə respublikaya rəhbərlik edərkən, "Şəhərin yay günləri" pyesinin səhnəyə qoyulmasını təmin etmiş, əsərə görə yazıçıya Dövlət mükafatının verilməsinə nail olmuş, müstəqillik illərində Azərbaycan Yazıçılarının X qurultayındakı nitqində Anarı sovet dövrünün dissidentləri sırasında xatırlatmışdır.

Anarın sovet dönəmində yazıb-yaratdığı "Dədə Qorqud" kino-dastanı, "Sizi deyib gəlmişəm" pyesi, "Uzun ömrün akkordları" filmi, onlarla povest və hekayələri, ədəbi tənqid və publisistikası, redaktoru olduğu "Qobustan" jurnalındakı fəaliyyəti azərbaycançılıq məfkurəsinin bilavasitə təcəssümü və təbliği olmaqla, rəsmi sovet ideologiyasına, sosrealizm ədəbiyyatına qarşı durmuş, alternativ irəli sürmüşdür. Ulu öndər Heydər Əliyev müstəqillik illərində Anarın yaradıcılığına bütövlükdə önəm verməklə "Qobustan" jurnalını məxsusi fərqləndirmişdir: "Məsələn, mən "Qobustan" jurnalını xatırlayıram. O yarananda əleyhinə nə qədər cürbəcür hərəkətlər oldu. Mənim xatirimdədir, biri gəlirdi ki, nə bilim, millətçilik ideyaları yayır, biri gəlirdi ki, bizim quruluşun əleyhinə ideyalar yayır, biri o tərəfdən, biri bu biri tərəfdən gəlirdi. Mən də götürürdüm, baxırdım bu "Qobustan" jurnalına, görürdüm ki, bunların dedikləri şey yoxdur, amma bizim üçün lazım olan şeylər çoxdur. Ona görə də, "Qobustan" jurnalı yaşadı. Bu gün məmnuniyyət hissi ilə deyirəm ki, "Qobustan" jurnalı o vaxt çox böyük işlər gördü" [3, s. 47].

Sovet dövründə yaradıcılığı qıcıq doğuran, etiraz ilə qarşılaşan yazıçılardan biri də İlyas Əfəndiyevdir. 1950-ci illərdən başlayaraq, onun qəhrəmanları müasir həyat uğrunda mübarizə aparırlar. Bu qəhrəmanlar azad düşünən, sərbəst hərəkət edən, həyat yollarında rastlaşdıqları ehkamlarla barışmayan müasir insanlardır. Əslində, bu parametrlər poststalinizm dövrünün tələblərinə tamamilə uyğun gəlir. Amma sovet ədəbi tənqidini narazı salan bu qəhrəmanların gerçək həyat tərzinə etirazı, kommunizm quruculuğu ölçülərinə düz gəlməməsi, məhz Azərbaycan cəmiyyətinin problemlərini, Azərbaycan dəyərlərini təqdim etməsi idi. Zahirən ədəbi tənqid milli mentalitetlə pərdələnir, Nuriyyənin ("Söyüdlü arx"), Səriyyənin ("Körpüsalanlar"), Nargilənin ("Sən həmişə mənimləsən"), Jasminin ("Məhv olmuş gündəliklər") hərəkətlərində azərbaycanlı qızlara yaraşmayan cəhətlər axtarırdı.

Elçin "İlyas Əfəndiyev. Şəxsiyyəti və sənəti haqqında bir neçə söz" məqaləsində vaxtilə böyük rezonans doğurmuş "Səriyyə məsələsi"ni xatırladaraq yazır: "Bir müddət keçdikdən sonra,

Azərbaycan mətbuatında “Körpüsalanlar”a qarşı Stalinin ölümündən sonra Azərbaycan ədəbi həyatında misli görünməmiş bir cəhalət hücumu kampaniyası və həmin kampaniyanın yaratdığı ajiotaj başladı: əsərin bədii-estetik cəhətləri qaldı bir tərəfdə və Stalin dövrünə məxsus bir vulqar-sosioloji cəbhədən, sovet cəmiyyətinin mənəvi qələbələr əldə etdiyi bir zamanda bu povestdə “əxlaq normaları pozulur”, “müasir əxlaq normasından kənara çıxan hərəkətlərə” yol verilir... – deyə, povest nadan mülahizələrlə “ifşa” edilirdi, hətta, iş o yerə gəlib çıxmışdı ki, misal üçün, “Azərbaycan qadını” jurnalı “Körpüsalanlar”ı “ifşa” edən xüsusi rubrika açmışdı və nömrədən-nömrəyə təşkil etdiyi “hiddətlənmiş oxucu məktubları” çap edirdi” [8, s. 25-26].

İlyas Əfəndiyev qəhrəmanlarını gənc nəsildən, əksərən də gənc qız, qadın obrazlarından seçir, təsvir edirdi. “Sən həmişə mənimləsən” (1964), “Mənim günahım” (1967), “Unuda bilmirəm” (1968), “Məhv olmuş gündəliklər” (1969), “Qəribə oğlan” (1973), “Büllur sarayda” (1983) pyeslərində yeni nəslin üzləşdiyi həyat problemlərini, mənəvi konflikt və sosial əngəlləri səhnəyə gətirir, yalnız bu obrazlar deyil, həmçinin onları izləyən minlərlə tamaşaçının timsalında azad düşüncəli, mənən saf, təmiz azərbaycanlı gənc nəslin yetişməsinə bilavasitə xidmət edirdi.

Qeyd olunmalıdır ki, yalnız İlyas Əfəndiyevin ədəbi qəhrəmanları deyil, “altmışıncılar” ədəbiyyatından Təhminə (Anar, “Ağ liman”), Məsməxanım (Elçin, “Bir görüşün tarixçəsi”), Laçın (Sabir Əhmədli, “Yamacda nişanə”), Umud (İsi Məlikzadə, “Quyu”) və bir çox başqa obrazlar da sosrealizmin tələblərinə və kommunist əxlaqına sığmayan davranış etibarilə tənqidə məruz qalmış, qınaq obyekti olmuşlar. Sosial həyatın milli varlığa yad mahiyyətini görən yazıçılar bunu qələmə alır, qəhrəmanların öz varlığı uğrunda mənəvi mübarizəsini əks etdirirdilər. Təsadüfi deyil ki, ədəbi tənqid bu dövrün nəsrini mənəvi-əxlaqi problemləri işıqlandıran nəsr kimi səciyyələndirmişdir.

İlyas Əfəndiyev daha sonrakı dövrdə qələmə aldığı “Sarıköynəklə Valehin nağılı” (1977) romanında sosial gerçəkliklə milli mənəviyyatın açıq şəkildə toqquşduğu həqiqətləri geniş şəkildə əks etdirdi. Əsərin qəhrəmanları gənc Sarıköynək və Valeh vicdanlı həyat və saf sevgi naminə mübarizədə hər yerdə mənəviyyatsız, əliəyri, rüşvətxor, hörümçək toru kimi bütünlükdə cəmiyyəti bürümüş məmurlar şəbəkəsi ilə üzləşirlər. Romanın təqdim etdiyi saysız lövhələr ictimai quruluşun çürüdüyünü göstərdiyi halda, saf, düzgün əxlaqlı, mənən sarsılmaz olan məhz gənc qəhrəmanlardır. Bu, yazıçının yadlaşmış, özgələşmiş Azərbaycan cəmiyyətinin bu günü ilə barışmayıb, gəncliyin timsalında sabahına inamını ifadə edirdi.

“Sarıköynəklə Valehin nağılı”nın sosial ziddiyyətləri aşkar şəkildə, kəskin, güzəştsiz təqdimi rejimi qane etməmiş, əsərin Yazıçılar İttifaqında müzakirəsindən (1977) sonra o zaman Azərbaycan Kommunist Partiyası MK-nın ideoloji katibi Yazıçılar İttifaqının sədri İmran Qasımova təzyiq göstərmişdir: “Bu roman inkişaf etmiş sosializm cəmiyyətinə yad bir əsərdir” [8, s. 46]. Yalnız Respublika başçısı Heydər Əliyevin müdaxiləsindən sonra insident sovuşmuşdur [8, s. 46-47].

**Ədəbiyyatda ideoloji mübarizənin dərinləşməsi və polemik diskursun formalaşması**

1960-cı illərin əvvəllərində iki dünyagörüşün – kommunist və milli baxışların toqquşması “müasirlik” bayrağı altında keçirdi. Rejim modernləşmə prosesində “Qərb təsiri” təhlükəsindən çəkinirdi. “Mücərrədçilik xalqımızın zövqünə yabançıdır” məqaləsində Əkbər Ağayev yazırdı: “Biz belə hallara qarşı qəti mübarizə aparmalıyıq. Ədəbiyyat və incəsənətimizin xalqın həyatı ilə əlaqəsinin daha da möhkəmləndirilməsi uğrunda, ideyasızlığa, yalançı novatorluğa, hər cürə yabançı təsirlərə qarşı barışmaz mübarizə həmişə olduğu kimi bundan sonra da yaradıcı ziyalılarımızın şərəfli vəzifəsidir” [2, s. 3].

“Ədəbiyyat və incəsənət” qəzetinin 9 fevral 1963-cü il tarixli sayında “Xalq üçün yazıb yaratmalı” sərlövhəli baş məqalədə bu təhlükə sırasında konkret olaraq Rəsul Rzanın “Rənglər” silsiləsinin adı çəkilirdi: “Tamamilə aydındır ki, bu şeirlərdə konkret insan yoxdur, rənglərin dili ilə insana söylənən fikirlər çox mücərrəddir, dumanlıdır və oxucu bu fikirləri, duymaq, başa düşmək bir yana

qalsın, yozub məna çıxarmağa da çətinlik çəkir" [12, s. 1]. Bununla da Rəsul Rzaya qarşı "burjua təsiri" mövzusunda tənqid kampaniyası başlayırdı. 2 mart 1963-cü il tarixində "Ədəbi tənqidin vəziyyətinə dair" adlı məqalədə "Rənglər" və onu müdafiə edənlər hədəfə alınmışdı: "Amma R.Rzanın sənət taleyini də Puşkinin sənət taleyi səpgisində görmək, yaradıcılıq azadlığı və novatorluq üçün hər cürə imkanın olduğu bizim müasir sovet şəraitində yeniliyin "zəncirləri qıra-qıra" özünə yol açdığını söyləmək kökündən yanlışdır" [6, s. 1]. Rəsul Rza şeirinin ədəbi mühitdə müqavimətlə qarşılanması əslində heç də ideoloji səbəblərlə deyil, estetik novatorluğu ilə bağlı idi. Şairi "formalizm və mücərrədçilik"də ittiham edən Osman Sarıvəllinin "Məqsəd aydınlığı və sənətkarlıq" [20], Əhəd Hüseynovun "Şeir, yoxsa tapmaca" [11] adlı məqalələri də bunu göstərirdi.

Bununla belə, Rəsul Rzanı ideoloji təqiblərdən müdafiə edənlər də vardı və onlar məhz milli mövqedən çıxış edirdilər. Mir Cəlal "Müasir tələblər səviyyəsində" məqaləsində şairin müasirliyini klassik irsə söykənməsində görürdü: "Xalq şairi Rəsul Rza şeirdə yenilik axtaran və buna çox meyl edən bir sənətkardır. Onun bu yolda müvəffəqiyyətləri, müəyyən hallarda isə büdrəmələri də oxucuya məlumdur. Güman edirəm ki, Rəsul Rza heç vaxt bu axtarışlarında klassik şeirimizin gözəl ənənələrinə – füzulilərə, sabirlərə arxa çevirməmişdir və çevirməz. Əksinə, o öz yenilik axtarışlarında bu ənənələri inkişaf etdirməyə cəhd etməkdədir" [19, s. 2].

Rəsul Rzanın "Rənglər" silsiləsi ətrafında polemika sənət mübahisəsi çərçivəsindən çıxaraq, sırf ideoloji ittihama çevrilirdi. Buna əsas səbəb mülayimləşmə dövrünün bitməsi və rejimin ədəbiyyat üzərində nəzarəti tam əlinə almaq cəhdlərində görünürdü. "Ədəbiyyat və incəsənət" qəzetinin 20 aprel 1963-cü il sayında dərc olunmuş "Ədəbi ilin yekunları barədə söhbət" icmalında "Rənglər"lə bir sırada Qabilin "Tramvay parka gedir" şeiri mücərrədlikdə, Xəlil Rza şeiri "fikir dolaşıqlığı"nda, S.Əhmədov "Rahatlıq" hekayəsində mövqesizlikdə, Anar "Taksi və vaxt" hekayəsində "bir adamın çürük fəlsəfəsi"ndə ittiham olunur [5, s. 3]. "Xalq üçün yazıb-yaratmaq böyük səadətdir" icmalında İlyas Əfəndiyevin "Dağlar arxasında üç dost" romanı, İsa Hüseynovun "Kabus", Əbülhəsənin "Tamaşa qarının nəvələri", Əli Vəliyevin "Jurnalist kəndə gəlir" povestləri sosrealizm mövqeyindən tənqid edilir, "müasirliy"in məhz millilik aspektindən dərki təftiş olunurdu [13, s. 1-2].

Daha bir ideoloji həmlə qeyri-rəsmi şəkildə qadağan olunmuş mövzularda milli həqiqətlərin əks olunmasına qarşı idi. Millilik amilinə həssas olan rejim hər hansı bir formada mühacirət mövzusunun ədəbiyyatda inikasına yol vermirdi. Bu baxımdan Nəbi Xəzrinin "Kiçik təpə" poeması "keçmiş bəyləri, mülkədarları" qəhrəman seçdiyinə görə tənqid olunmuş, "O, əsas mətləbi bir kənara qoyub, xaricə qaçmış miskinlərin, onların öz dili ilə vətən, el, oba həsrətindən bəhs edir" [14, s. 3] – deyə, psixoloji insan problemini ideoloji müstəviyə çəkmişdilər. Nəbi Xəzridən sonra nəinki ədəbiyyatda bir daha bu mövzuya toxunulmur, şair poemanı kitablarına belə daxil etmir. Mühacirət mövzusu bir daha ədəbiyyata yalnız sovet quruluşunun çökməsi ilə müstəqillik dövründə qayıdır, ədəbiyyatımızın mühacirət qolu ayrıca bir sahə kimi öyrənilməyə başlanır.

Qadağa ilə üzləşən başqa bir mövzu – repressiya həqiqətlərinin ədəbiyyatda inikasının qarşısının alınması idi. O cümlədən Əliağa Kürçaylının şəxsiyyətə pərəstiş dövründən söz açan "Daş hasar" poeması sadə bir səbəbdən, hadisələri sosrealist nəzərdən deyil, obyektiv əks etdirdiyinə görə tənqid olunurdu: "37-ci il hadisələrinə müəllif münasibətində də ikilik vardır. Poemadan belə çıxır ki, şəxsiyyətə pərəstiş dövründə həm Arzu kimi (yəni mənfi), həm də Zülfüqar kimi (yəni müsbət) vətəndaşlar azadlıqdan məhrum edilib düşərgələrə göndərilmişlər. Deməli, xalq misalında deyildiyi kimi, qurunun oduna yaş da yanmışdır?" [12, s. 2]. Əslində isə bu halda ideolojinin oduna yanan milli həqiqətlərin xalqdan gizlədilməsi idi.

Ədəbiyyatda böyük təzyiq altında olan mövzulardan daha biri – ana dili uğrunda mübarizədir və Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, Sabir Rüstəmxanlı və bir çox şairin rejim tərəfindən incidilməsi faktdır. Yazıçılar İttifaqının 1962-ci ildə keçirdiyi partiya iclası bir sıra həssas milli məsələlərlə yanaşı, bu problem ətrafında da sanki məhkəmə prosesi qurmuş, Xəlil Rzanın

"Ana dili" şeiri və "çapdan saxlanılmış "Məftillə sarınmış yaralar" poeması, tənqidçi Məsud Əlioğlunun "Sevildən Saçlıya", "Səriyyə haqlıdırmı?" məqalələri, tənqidçi Qulu Xəlilovun yol verdiyi "dilə dair ciddi nöqsanları" mühakimə olunmuşdur [15, s. 1]. 1930-cu illərin təqiblərini xatırladan belə bir ideoloji mühitdə yazıçı və ədiblər – "Azərbaycan" jurnalının baş redaktoru Əbülhəsən, "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru Qasım Qasımzadə, "Şair Xəlil Rza və tənqidçi Qulu Xəlilov çıxış edərək öz səhvlərini etiraf etməyə" məcbur olunmuş və hətta tələblərə "gələcəkdə ideya-siyasi səviyyəsi və bədii keyfiyyəti etibarı ilə diqqət cəlb edən əsərlər yazmaqla cavab verəcəklərini" vəd etməli olmuşlar [15, s. 2].

Müasirlik bayrağı altında gedən ideoloji çarpışmalarda azərbaycançılıq məfkurəsi ədəbiyyatda özünə bütün 1960-cı illər ərzində çətinliklə yol açmış, getdikcə bir illüziyaya çevrilən kommunizm ideologiyasının barrikadalarını məhz milli həqiqətləri göstərmək, milli dəyərləri təcəssüm etdirməklə yara bilmişdir. 1969-cu ildən Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi vəziyyəti millilik amilinin xeyrinə kökündən dəyişsə də, ədəbiyyatda iki dünyagörüşün çarpışması hələ uzun müddət davam etmiş, mübarizə daha da kəskinləşmişdir. Respublikanın milliləşməsi azərbaycançılığın şüurlara yerləşməsinə nə qədər münbit şərait yaratsa da, rejimin himayəsi altında ədəbiyyatda sosrealizmin qalıqları qalır, süni olaraq ömrü uzadılırdı.

1970-ci illər üçün bütün ideoloji tələblərə baxmayaraq, həyatı sosrealizm baxışlarından deyil, milli həqiqətlər nöqteyi-nəzərindən əks etdirən ədəbiyyatın çəkisi daha da artmışdı. 1950-ci illərdən – Rəsul Rza, Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, İlyas Əfəndiyev, İsa Hüseynov, Əli Kərim, Xəlil Rza, Məmməd Araz, 1960-cılar illərdən – Anar, Yusif Səmədoğlu, Sabir Əhmədov, Elçin, Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov, Fikrət Qoca, Vaqif Səmədoğlu, Fikrət Sadıq, İsa İsmayılzadə, İsi Məlikzadə, Fərman Kərimzadə və b. yazıçı və şairlərin ardınca 1970-ci illərdə tanınan Ramiz Rövşən, Mövlud Süleymanlı, Sabir Rüstəmxanlı, Aqil Abbas, Çingiz Əlioğlu, Seyran Səxavət, Vaqif Cəbrayılzadə, Afaq Məsud və bir çox yazıçı və şairlərin əsərləri sosrealizmin tələb və prinsiplərindən tamamən yan ötüb milli dünyagörüşə, azərbaycançılıq ideallarına söykənirdi.

Rejim ideoloji təzyiqini sosrealizm yaradıcılıq metodu ilə həyata keçirə bilmədikdə, birbaşa inzibati üsullara əl atır, senzura vasitəsilə bu ədəbiyyatın çapına mane olur, qadağalar qoyurdu. Yazıçıların əksəriyyəti ədəbi mühitdə bu maneələrlə üzləşmiş, yaradıcılıqlarında bu və ya digər şəkildə ağrılarını çəkmişdilər. Sabir Əhmədlinin kəndlərdə kolxoz həyatının gerçəklərini təsvir edən "Dünyanın arşını" (1969) romanı "Azərbaycan" jurnalında dərc olunduqdan sonra kitab şəklində çapına icazə verilməmiş, yalnız müstəqillik illərində nəşr olunmuşdur. Eyni zamanda Sabir Əhmədli "Yaşıl teatr" və "Qan köçürmə stansiyası" povestlərinin jurnal çapından sonra kitab nəşri üçün uzun müddət mübarizə apararaq buna nail olmuşdur.

İlk lirik şeirləri 1960-cı illərin sonlarında dərc olunan Ramiz Rövşən 1970-ci ildə işıq üzü görən "Bir yağışlı nəğmə" kitabçasından sonra uzun illər mətbuata çətinliklə yol tapmış, yaradıcılıq platformasını ifadə edən modernist ruhlu "Göy üzü daş saxlamaz" poetik toplusunu yalnız 1987-ci ildə çap etdirə bilmişdi. Vaqif Səmədoğlu isə 1960-cı illərin əvvəllərində iki yığcam poetik kitabçasından sonra senzuranı göz önünə alıb şeirlərini dərc etdirməmiş, 1970–1980-ci illərdə qələmə aldığı kədər ruhlu, sərbəst düşüncəli mətnlərini yalnız müstəqillik illərində "Mən burdayam, İlahi" (1996) və "Uzaq yaşıl ada" (1998) ktablarında təqdim etmişdir. İsa Hüseynov (Muğanna) ilk "Yanar ürək" romanını (1957) "İdeal" (1983) adı ilə yenidən işləyib köklü şəkildə dəyişdikdən sonra sovet dönəmində ədəbiyyatın nə qədər böyük senzura təzyiqi altında olduğu daha da aydın göründü. Hətta rejimin qürub etdiyi bir vaxtda Xəlil Rza Ulutürkün "Məndən başlanır Vətən" (1988) kitabından çağırış ruhlu "Silahlan" və "Nə yaxşı ki, Türkiyə var" şeirləri çıxarılmış, şair təkrar nəşrlə bu ixtisarları bərpa etməyə nail olmuşdur.

1960–1980-ci illərdə milli ruhlu, milli həqiqətlərdən söz açan bütün əsərlər eyni tale ilə üzləşmiş, bir çox hallarda Ümummilli liderin müdaxiləsi və şəxsi iradəsi sayəsində işıq üzü görə bilmiş-

dir. Cəmiyyət haqqında sosrealizm yalanlarından xali gerçək sosial həqiqətlər İlyas Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı", "Büllur sarayda", Anarın "Macal", "Şəhərin yay günləri", Elçinin "Dolça", "Ağ dəvə", Sabir Əhmədovun "Yaşıl teatr", "Yasamal gölündə qayıqlar üzürdü", Maqsud İbrahimbəyovun "Kərgədan buynuzu", "Bayquş gəlmədi", Rüstəm İbrahimbəyovun "7-ci Xrebtovıda", Mövlud Süleymanlınım "Şeytan", "Dəyirman", Seyran Səxavətin "Daş evlər", Sabir Azərinin "Dalanda", Tofiq Qəhrəmanovun "Qonşular", Afaq Məsudun "Şənbə gecəsi" və s. nəsr əsərlərində, Rəsul Rzanın, Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın, Məmməd Arazın, Sabir Rüstəmxanlının, Ramiz Rövşənin, Musa Yaqubun, Eldar Baxışın və b. şairlərin şeirlərində dil açıb danışır, milli varlığın sabahı barəsində həyəcan təbili çalırdı. Bu əsərlərdə sosial həyatın ifşası, sosializm cəmiyyətinin tənəzzülü, milli insanın mənəvi ağrıları, etiraz və üsyanı əksini tapırdı.

Ədəbiyyatda iki dünyagörüşün, cəmiyyət həyatına iki baxışın üz-üzə gəldiyi son döyüş Mövlud Süleymanlının "Azərbaycan" jurnalının 1979-cu il 5-ci sayında dərc olunmuş "Dəyirman" povesti ətrafında baş verir. Əsərdə simvolik olaraq yol kənarında köhnə funksiyasını itirərək kafeyə çevrilən, cəmiyyətin müxtəlif təbəqələrinin toplaşdığı, kef və mənəviyyatsızlıq yuvasını təmsil edən bir dəyirman və burda cərəyan edən hadisələr təsvir olunur. Sosrealizm dünyagörüşünü daşıyan bir sıra yazıçılar əsərdə sovet gerçəklərinin təhrif olunduğunu bayraq edərək: "Qorxulu təkcə adamları mənəvi cəhətdən şikəst edən dəyirman – kababxana deyil. Bir nəfər belə, mənəvi cəhətdən təmiz adamı olmayan bütöv bir kənddir. Görəsən, müəllif belə bir kəndi harada görüb?" [10, s. 6] – ritorik bəyanatı ilə ədəbi ictimaiyyət qarşısında publik məsələ qaldırır. Halbuki povestdə yazıçı realist planda deyil, cəmiyyətdə gedən mənəvi aşınma, təbəqələşmə, varlanma ehtirası və düşkünləşmə proseslərini rəmzi bir dəyirman modelində təqdim etməklə həyəcan qaldırır, problemə diqqət çəkirdi. Azərbaycan gerçəkliyini fiksə edən bu narahatlıq sosrealizm tərəfdarlarının saxta canfəşanlığından daha real və aktual görünürdü.

Ədəbiyyatda mövcud iki tendensiyanı göstərmək niyyətilə "Ədəbiyyat və incəsənət" qəzetinin səhifəsində hər iki baxışa yer verən – əsəri ittiham edən Xalidə Hasilovanın "Qorxulu dəyirman" [10] və müdafiə edən Kamal Abdullayevin "Dəyirmanın içi və çölü" [1] məqalələrini dərc etmişdir: "Gənc yazıçı M.Süleymanlının "Dəyirman" povesti haqqında oxucularının müxtəlif mülahizələri olduğunu nəzərə alaraq, redaksiya iki rəy çap etməyi lazım bilmişdir" [1, s. 6]. Məqaləsində tənqidçi Kamal Abdullayev haqlı olaraq M.Süleymanlıya dəstək olur: "Duymamaq mümkün deyil ki, dəyirman anlayışından müəllif bir simvol kimi istifadə edir. Dəyərliyin bu şəkildə dəyişməsinin insan mənəviyyatına və insan şüuruna mənfi təsiri hiss edirsən ki, müəllifi düşündürür" [1, s. 6].

Azərbaycan Yazıçılar İttifaqında "Dəyirman" povestinin müzakirəsi təşkil olunmuş, yazıçılar və tənqidçilər iki cəbhəyə ayrılaraq doğru mövqeni müəyyənləşdirməyə çalışmışlar. Əksər çıxışlarda, povestdə müəyyən nöqsanlar tapsalar da, müəllifin xoş məramı, cəmiyyətdə baş verən xoşagəlməz hadisələrə etirazı, prinsipial yanaşması təqdir olunmuşdur. Yığıncağın çıxardığı qərarla razılaşmayan sosrealizm tərəfdarları haqlı olduqlarını sübut etmək üçün, hətta Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinə müraciət etmiş, insident yalnız Ümummilli lider Heydər Əliyevin işə qarışmasından sonra aradan qalxmışdır. Bu barədə yazıçı Mövlud Süleymanlı "Qırx ilin yeddi görüşü" xatirə əsərində söz açır: "Əsər 1979-cu ildə "Azərbaycan" jurnalında dərc olunan kimi hücumlara məruz qaldı. Antisovet əsər adıyla hallandırıldı. Mərkəzə məktublar yazıldı. Elə həmin ilin payızında Yazıçılar İttifaqı, Natəvan adına klubda "Dəyirman" povestinin müzakirəsini – "məhkəməsini" keçirməli oldu... "Dəyirman" əsərinin müzakirəsi, ona qarşı olan hücumlar böyüyüb bütün Azərbaycanı bürüdü, Moskvaya teleqramlar vuruldu... Burda da, orda da kitablarım plandan çıxarıldı. Hamısı üstümə qaytarıldı... Heydər Əliyevin qəbulunda da olmuşdular artıq... Beləcə... Heydər Əliyev məni sözün əsl mənasında qaragüruhun əlindən aldı. Mən nihilist tənqidin dəmir caynaqlarından qurtulub bir-birinin ardınca romanlarımı yazdım. Bacardığım qədər sağlam, təmiz, halal sözümü dedim..." [21, s. 34-35].

Azərbaycan ədəbiyyatında son psevdo-kommunist prinsipiallıq və sosrealist dirənişmə bu hadisə ilə ömrünü başa vurur. Azərbaycan Kommunist partiyasının başında duran Ümummilli lider Heydər Əliyev məhz azərbaycançılıq mövqeyini üstün tutaraq müdafiə edir.

1980-ci illərdən başlayaraq, Azərbaycan ədəbiyyatının ən önəmli nümunələrində artıq sovet rejiminin bütövlükdə iflasından söhbət gedir. 1970-ci illərdən sovet quruluşu çat verdikcə hakim ideologiyanın gücü zəifləmiş, getdikcə güclənən milli məfkurənin, azərbaycançılıq ideologiyasının qarşısını almaqda aciz qalmışdır. Bədii nəsrdə və dramaturgiyada totalitarizm və avtoritar cəmiyyətin fəsadlarını ifşa edən modelləşdirici nümunələr yaranmışdı. Anarın "Yaxşı padşahın nağılı" (1970) və "Səhra yuxuları" (1981) əsərlərindən sonra Mövlud Süleymanlının "Şeytan" (1978) və "Dəyirman" (1979), Yusif Səmədoğlunun "Qətl günü" (1984), Elçinin "Ölüm hökmü" (1984–1988), Sabir Əhmədovun "Yasaq edilmiş oyun, Gülmalı kişinin axırı" (1988) Tofiq Qəhrəmanovun "Qulbeçə" (1989), Afaq Məsudun "İzdiham" (1992) və s. əsərlər şərti-metaforik üsullarla bu cəmiyyətin dağılacağından xəbər verirdi. Mövlud Süleymanlı "Köç" (1984) romanında milli cəmiyyətin alternativ modelini təqdim etməklə üzərində düşünməyə çağırırdı.

**YEKUN NƏTİCƏ**

Azərbaycanı müstəqilliyə aparan yol tarixi mübarizələrdən keçmiş, çətin və mürəkkəb olmuşdur. Bu yolda Azərbaycan ədəbiyyatı daim xalqın yanında olmuş, mühüm dayaqlarından biri kimi milli-mənəvi ruhunun qorunmasında, azadlıq eşqinin alovlanmasında, sonda istiqlalın yenidən bərpası və siyasi azadlığının qazanılmasında böyük rol oynamışdır. 1960–1980-ci illərdə sovet rejiminin sərt nəzarəti belə Azərbaycan ədəbiyyatının milli məfkurənin inkişafında iştirakına əngəl ola bilməmişdir. Bu da təsadüfü deyil, "ədəbiyyat millətin və vətəndaşların həyatının, davranış və münasibətlərinin təmsil olunduğu mətnlər toplusu olmaqla yanaşı, kimlik və şüurun əsas məcrasını ifadə edir. Milli ədəbiyyat ilə milli kimlik arasındakı paralellik də bu dialoqun və meydana gələn təsirin həqiqi əhəmiyyətini göstərməyə kifayət edir" [25, s. 34].

Sovet İttifaqının öz ömrünü uzatmaq niyyətilə ədəbiyyat üzərində nəzarəti sərtləşdirməsi, sosialist realizmi yaradıcılıq metodu ilə kommunizm təbliğatını gücləndirməsi iki dünyagörüşün – sosializm və azərbaycançılıq məfkurələrinin üz-üzə gəlməsinə səbəb olmuş, bu qarşılaşma milli ideologiyanın xeyrinə alt qatda gedən milli özünüdərk və oyanış proseslərini daha da sürətləndirmişdir. 1980-ci illərdən ədəbiyyatda rejimə qarşı milli mövqelərdən ittihamlar açıq şəkildə səslənməyə başlanmışdır.

1960–1980-ci illər ədəbiyyatının tədqiqi göstərir ki, bu dövrün ədəbi-bədii əsərləri milli dəyərləri, ana dilini, azadlıq istəyini dolayısı və ya birbaşa şəkildə təbliğ edərək xalqı sovet rejiminə qarşı səfərbər etmək iqtidarında olmuşdur. "Altmışıncılar"ın yaradıcılığı totalitar rejimə qarşı dayanaraq bədii sözdən ideoloji mübarizədə azərbaycançılıq məfkurəsinin dayağı kimi istifadə etmiş, müstəqilliyə mənəvi zəmin hazırlamışdır.

Beləliklə, 1960–1980-ci illərdə ədəbiyyatda iki dünyagörüşün qarşılaşması azərbaycançılıq məfkurəsinin qalibiyyəti ilə nəticələndi. Kommunist dünyagörüşü və sosrealist baxışlara qalib gələrək, azərbaycançılıq məfkurəsi müstəqillik düşüncəsini yetişdirdi.

**ƏDƏBİYYAT**

1. Abdullayev, K. Dəyirmanın içi və çölü // Ədəbiyyat və incəsənət. – 1979, 3 avqust. – s. 6.
2. Ağayev, Ə. Mücərrədçilik xalqımızın zövqünə yabançıdır // Ədəbiyyat və incəsənət. – 1963, 5 yanvar. – s. 1; 3.
3. Anar. Unudulmaz görüşlər. – Bakı: Təhsil, – 2009. – 272 s.
4. Azərbaycan ədəbiyyatı tarixi: [10 cilddə]. – Bakı: Elm, – c. 7, II hissə. – 2025. – 1160 s.

5. Ədəbi ilin yekunları barədə söhbət // Ədəbiyyat və incəsənət. – 1963, 20 aprel. – s. 3.
6. Ədəbi tənqidin vəziyyətinə dair // Ədəbiyyat və incəsənət. – 1963, 2 mart. – s. 1.
7. Əfəndiyev, A. Müdriklik səlahiyyəti. – Bakı: Gənclik, – 1976. – 192 s.
8. Əfəndiyev, İ. Seçilmiş əsərlər: [ 7 cilddə] / İ.Əfəndiyev. – Bakı: Çinar-Çap, – c. 1. – 2002. – 448 s.
9. Əlimirzəyev, X. "Ağ liman" povesti haqqında qeydlər // Kommunist. – 1967, 11 iyun. – s. 3.
10. Hasilova X. Qorxulu dəyirman // Ədəbiyyat və incəsənət. – 1979, 3 avqust. – s. 6.
11. Hüseynov, Ə. Şeir, yoxsa tapmaca // Ədəbiyyat və incəsənət. – 1963, 6 aprel. – s. 2.
12. Xalq üçün yazıb yaratmalı // Ədəbiyyat və incəsənət. – 1963, 9 fevral. – s. 1-2.
13. Xalq üçün yazıb-yaratmaq böyük səadətdir // Ədəbiyyat və incəsənət. – 1964, 28 mart. – s. 1-2.
14. Xəlil, Z. "Kiçik təpə" haqqında // Ədəbiyyat və incəsənət. – 1960, 30 yanvar. – s. 3-4.
15. İdeoloji işi müasir tələblər səviyyəsinə! // Ədəbiyyat və incəsənət. – 1962, 15 sentyabr. – s. 1-2.
16. İdeya silahımız təmiz olmalıdır // Ədəbiyyat və incəsənət. – 1963, 6 iyul. – s. 1.
17. Kommunizmə sədaqət ruhunda // Ədəbiyyat və incəsənət. – 1963, 15 iyun. – s. 1.
18. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [ 2 cilddə]. – Bakı: Elm və təhsil, – c. 1. – 2016. 800 s.
19. Paşayev, M.C. Müasir tələblər səviyyəsində // Ədəbiyyat və incəsənət. – 1963, 30 mart. – s. 2.
20. Sarıvəlli, O. Məqsəd aydınlığı və sənətkarlıq // Ədəbiyyat və incəsənət. – 1963, 30 mart. – s. 3-4.
21. Süleymanlı, M. Qırx ilin yeddi görüşü // – Bakı: Tənqid.net, – 2013. № 10, – s. 24-35
22. Talıbov, Q. Gənc nasirlər haqqında bəzi qeydlər // – Bakı: Ulduz, – 1974. № 11, – s. 52-57
23. Tarixi günlər // Ədəbiyyat və incəsənət. – 1964, 7 mart. – s. 1.
24. Асадуллаев, С. Эстетический идеал и социальная активность писателя. – Баку: Язычы, – 1982. – 304 с.
25. Alver, K. Edebiyat ve kimlik // – Sakarya: Bilgi, – 2006. № 2, – s. 32-42
26. Başaran, G. Bellek yönetimi ve edebiyat: Türk ulusal kimliyinin inşası və tarihi romanlar // – Ankara: Kültür ve iletişim, – 2007. № 10(2), – s. 63-90

## THE ROLE OF LITERARY STRUGGLE IN ACHIEVING AZERBAIJAN'S INDEPENDENCE

**S.A. Gahramanov**

Alongside various factors, Azerbaijani literature also played a significant role in the Azerbaijani people's struggle for freedom and the attainment of state independence. Although literature was subject to the pressure of official communist ideology during the Soviet era, it played an active role in awakening national consciousness and in the development of ideas of independence in Azerbaijan. Especially in the 1960s–1980s, Azerbaijani literature, while preserving national memory, had a significant impact on the formation of the ideology of Azerbaijanism. As evidenced by literary examples of this period and by polemics in the press, the ideologies of communism and Azerbaijanism came into conflict. While the ideology of communism shaped literature according to the principles of socialist realism, Azerbaijanism was more strongly reflected in the literature of the "Sixties generation".

The works of Anar, Ilyas Efendiyev, Bakhtiyar Vahabzadeh, Rasul Rza, Movlud Suleymanli, Elchin, Sabir Ahmadov, and other representatives of the "Sixties generation" literature broke away from the constraints of socialist realism and reflected the spiritual world of the Azerbaijani people, their national values, and their opposition to the regime. The triumph of Azerbaijanism over communist ideology in Azerbaijani literature of the 1960s–1980s was a decisive factor in the formation of the idea of independence.

**Keywords:** *Azerbaijani literature, socialist realism, "Sixties generation", Azerbaijanism, independence, ideological struggle, national consciousness*

# РОЛЬ ЛИТЕРАТУРНОЙ БОРЬБЫ В ДОСТИЖЕНИИ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА

**С.А. Гахраманов**

Наряду с различными факторами в борьбе за свободу азербайджанского народа, обретение его государственной независимости – большое место принадлежит азербайджанской литературе. Она сыграла активную роль в пробуждении национального самосознания и формировании свободолюбивых идей. Оберегая историческую память народа, азербайджанская литература имела серьёзное влияние на формирование азербайджанства как идеологии, особенно в 1960–1980-х годах.

Как это явствует из литературы того периода и многочисленных полемик в печати – в противоборстве столкнулись идеология коммунизма и идеология и азербайджанизма. Если коммунистическая идеология оказывала влияние на литературу, опираясь на стандарты социалистического реализма, то идеи азербайджанизма воплощались больше в творчестве шестидесятников.

Произведения Анара, Ильяса Эфендиева, Бахтияра Вагабзаде, Расула Рзы, Мовлуда Сулейманлы, Эльчина, Сабира Ахмедова и других представителей литературы шестидесятых, выйдя из формата соцреализма, отражали духовность азербайджанского народа, его национальные ценности, протест к существующему режиму.

Победа идеологии азербайджанизма над идеологией коммунизма в азербайджанской литературе 1960-1980-х годов явилась решающим фактором в формировании идей независимости.

**Ключевые слова:** *азербайджанская литература, социалистический реализм, шестидесятники, азербайджанство, независимость, идеологическая борьба, национальное сознание*